Vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəsi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Rafiq Abbasovun 2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində Ağcabədi rayonu Təzəkənd kənd sakini Cəfərov Kərim İsmayıl oğlunun 2014-cü il dekabrın 25-də Mərkəsi Seçki Komissiyasına daxil olmuş 25 dekabr 2014-cü il tarixli, 27 saylı müraciəti üzrə

# RƏYİ

Bakı şəhəri 26 dekabr 2014-cü il

Mən, ekspert qrupunun üzvü Rafiq Abbasov 2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində Ağcabədi rayonu Təzəkənd kənd sakini Cəfərov Kərim İsmayıl oğlunun Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına daxil olmuş 25 dekabr 2014-cü il tarixli, 27 saylı müraciətini araşdıraraq müəyyən etdim:

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin və "Azərbaycan Respublikasının Mərkəsi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinə uyğun tərtib edildiyindən və nəzərdə tutulan şikayət vermə müddətində verildiyindən araşdırmaya qəbul edilmişdir.

2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində Ağcabədi rayonu Təzəkənd kənd sakini Cəfərov Kərim İsmayıl oğlu 2014-cü il dekabrın 25-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına müraciət edərək, səsvermə günü 82 saylı Ağcabədi seçki dairəsi üzrə 22 və 45 saylı seçki məntəqələrində qanun pozuntularının olduğunu bildirmiş, müvafiq tədbir görülməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112 və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqularının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü kimi tərəfimdən icraata qəbul edilmiş və vətəndaşların seçki hüquqlarının daha səmərəli təmini prinsipini əsas götürülərək, qanunla müəyyən olunmuş qaydada araşdırılmışdır.

Azərbaycan Respublikası Seçki Məcəlləsinə və yuxarıda göstərilən Təlimatın 8.6-cı bəndinə uyğun olaraq şikayət və ya müraciət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdursa, onda həmin müraciətin aidiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci və "Azərbaycan Respublikası Mərkəsi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və

müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1, 2, 4, 6, 7 və 8-ci bəndlərinə əsasən **rəyə gəldim:**

1. Ağcabədi rayonu Təzəkənd kənd sakini Cəfərov Kərim İsmayıl oğlunun 2014-cü il dekabrın 25-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına daxil olmuş 25 dekabr 2014-cü il tarixli, 27 saylı müraciəti araşdırılması üçün aidiyyəti üzrə 82 saylı Ağcabədi seçki dairəsinin dairə seçki komissiyasına göndərilsin.

2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxsə göndərilsin.

Ekspert qrupunun üzvü Rafiq Abbasov